# İQTİSADİ İNKİŞAFA TƏSİR EDƏN AMİLLƏRİN TƏHLİLİ

**MİR NASER MİR BAĞİRİ HİR**
***Bakı Dövlət Universiteti***

*Məqalə iqtisadi inkişafa təsir göstərən faktorların təhlilinə həsr edilib və burada iqtisadi inkişafın xətti və qeyri-xətti modellər əsasında tədqiqi üstünlükləri göstərilir. Tanınmış iqtisadçıların, o cümlədən İran İslam Respublikasının iqtisadçılarının elmi əsərləri ümumiləşdirilərək, iqtisadi inkişafa təsir edən faktorlar müəyyənləşdirilmişdir.*

İqtisadi inkişafa təsir göstərən faktorların mahiyyəti, araşdırılması və təhlilinin iqtisadçılar üçün böyük əhəmiyyəti vardır. Bu zəmində çoxlu tədqiqatlar həyata keçirilir. İqtisadi inkişafın proqnozlaşdırılması ölkə iqtisadiyyatının idarə olunmasında və onun strateji inkişafının müəyyənləşdirilməsində böyük əhəmiyyət daşıyır. Modellərin proqnozlaşdırılmasında hal-hazırda xətti modellərlə (linear) yanaşı, müasir dövrün inkişaf tələblərinə uyğun qeyri-xətti (un-linear) modellərindən də istifadə etmək məqsədli və səmərəli hesab edilməlidir. Son illərdə iqtisadi inkişafın proqnozlaşdırılmasında qeyri-xətti modellərdən daha çox istifadə olunur. Məqalənin mahiyyəti və əhatə dairəsi iqtisadi inkişafın modelləşdirilməsi ilə bağlıdır və bu inkişafla əlaqədar amillərin təhlili aşağıdakı dörd istiqamətdə həyata keçirilir:

1. Nəzəri modellərə baxış;
2. Mövcud tədqiqatların araşdırılması;
3. İqtisadi inkişafa təsir göstərən faktorların təhlili;
4. Əldə edilən nəticələrin xülasəsi.

Qeyd etdiyimiz kimi, iqtisadi inkişafın modelləşdirilməsində riyazi və statistik üsul və metodlardan istifadə etmək məqsədə uyğundur.

İqtisadi inkişafın artımı makroiqtisadi indekslərin arasında mühüm indeks sayılır. Bu göstərici istənilən ölkənin iqtisadi vəziyyətini tam şəkildə göstərə bilir və onun artması ölkədə yaşayış səviyyəsinin yaxşılaşmasını əks etdirir. İnkişafa təsir göstərən belə amillərin seçilməsi ictimaiyyətin artım səviyyəsinə görə uyğun gələn siyasi-iqtisadi tədbirlərlə sıx əlaqədardır. Bu səbəbdən də iqtisadçılar və siyasətçilər bunu hər zaman nəzərə alırlar və ona xüsusi əhəmiyyət verirlər. Qeyd edilən istiqamətdə çoxlu tədqiqatlar həyata keçirilmiş, müxtəlif əsərlər və məqalələr çap olunmuşdur.

Qeyd etmək lazımdır ki, gələcəkdə bu istiqamətlərdə proqnozları düzgün vermək üçün müxtəlif statistik-riyazi modelləri reallaşdırmaq, bu nöqteyi-nəzərdən də davamlı inkişafa təsir göstərən amilləri ayırmaq və

seçmək lazımdır. Obrazlı dildə desək, əgər iqtisadi inkişafın modelləşdirilməsini bir binaya bənzətmək mümkünsə, onda bu inkişafı təyin edən və ona əsaslı sürətdə təsir göstərən amilləri və göstəriciləri bu binanın əsası hesab etmək olar.

**1. Nəzəri modellərə baxış**

Bir çox nəzəri modellərin təhlili göstərmişdir ki, bu modellər içərisində qarşıya qoyulan məqsədə nail olmaq üçün aşağıda təklif olunan nəzəri model daha yararlı hesab olunur və onun qısa izahı belədir:

Ümumi məhsul buraxılmasını $(Y)$, işçi qüvvəsinin sayını $(N)$ və insan kapitalını $(H)$ kimi qəbul etsək, onda ümumi daxili məhsula əhəmiyyətli dərəcədə təsir göstərən səmərəli işçi qüvvəsi:

$$\widetilde{N} = N \cdot H$$

olar.

Bu fikir R.Lukas (1988) tərəfindən irəli sürülmüşdür. Fiziki əsas kapitalın müxtəlif növlərini vektor şəklində $(K = k_1, k_2, k_3, ..., k_n)$ kimi göstərmək mümkündür. İstehsal texnologiyasını, onun intensivliyini göstərən (A)-nı sərbəst əmsal kimi qəbul etsək, onda məhsul buraxılışının həcminə əmək və kapital xərclərinin dəyişməsilə yanaşı, texniki tərəqqi – texnologiyanın təsiri ilə də baxılmalıdır. Texnologiya – texniki tərəqqi ya ayrıca bir resursun (bu halda məhsul buraxılışı verilən amilin qeyd edilmiş fiziki həcmi şərtində artır), ya da ümumi məhsulun səmərəliliyinə təsir edə bilər.

Bütün bunları aşağıdakı kimi göstərə bilərik:

$$Y = \widetilde{F}(K, \widetilde{N}, A).$$

Bu, ümumi məhsul buraxılışının ona təsir göstərən əsas faktorlardan asılılığını təsvir edir:

$$Y = \widetilde{F}(K \cdot A, \widetilde{N}).$$

Bu halda kapitalın məhsuldarlığı artır. Daha doğrusu, bu, kapital qənaətli texniki tərəqqi və ya Harroda görə, texniki tərəqqi adlanır:

$$\widetilde{F}(K, \widetilde{N}, A) = F(K, \widetilde{N} \cdot A), \tag{1}$$

$$\widetilde{F}(K, \widetilde{N}, A) = A \cdot F(K, \widetilde{N}). \tag{2}$$

(1) yazılışına görə, səmərəli işçi qüvvəsinin rolu, yəni əməyin məhsuldarlığı artır (bu əmək qənaətli texniki tərəqqi adlanır), (2) yazılışında isə amillərin məcmuu məhsuldarlığı artır (bu neytral texniki tərəqqi və ya Hiksə texniki tərəqqi adlanır). Beləliklə, A-istehsal texnologiyasının səmərəliliyindən asılı dəyişən olmaqla neytral, yəni qeyri-maddi texniki tərəqqi əmsalıdır.

Neoklassik modellərin birində əsasən maliyyə-sərmayə qoyuluşlarının izahı verilir. Bu da belə modellərin əsası hesab olunur. Neoklassiklərin inkişaf modellərindən Barro və Sala-i-Martin (1992), Kass (1965), Kup Manz (1965), Solo (1956, 1957), Sovan (1956) istifadə edərək onu izah etmişlər.

Neoкlassiк modelin mahiyyəti məhsul buraxılışının düsturunun və bir çox кəmiyyət göstəricilərinin seçilməsilə bağlıdır. Neoкlassiк modeldə (1)-i nəzərə alsaq, onda belə modelin təкmilləşdirilmiş forması aşağıdaкı кimi olar:

$$H^{\bullet}/H = 0 \text{ standart olub } H(0) = 1; \tag{3}$$

$$A^{\bullet}/A = \xi \geq 0;\ A(0) > 0; \tag{4}$$

$$N^{\bullet}/N = \nu \geq 0;\ N(0) > 0; \tag{5}$$

$$K - \text{sabit ədəddir,} \quad K(0) > 0; \tag{6}$$

$$\forall \tilde{N}A > 0;\ \lim_{k\to\infty} F\left(K, \tilde{N}A\right)/K = 0. \tag{7}$$

Qeyd edilənlər göstərir кi, bu halda yalnız fiziкi кapital yığılır, işçi qüvvəsi və texnologiyanın artımı isə olmur, ya da onlar sabit qalır.

Neoкlassiк maliyyə-sərmayə modelinin tanınmış modelindən birini Mənкiv, Romer və Viell (1992) birliкdə işləmiş və bu model «MRW» кimi tanınır.

İnsan кapitalı Solo və Sovanın modeli vasitəsilə izah edilir. Bu modelin düsturunda yuxarıda qeyd etdiyimiz (1)-(5) yazılışları iştiraк edir və əlavə olaraq (6) şərtindəкi $K$ iкi hissəyə ayrılır: fiziкi кapital $\left(K_p\right)$ və insan кapitalı $(K_h)$. Daha doğrusu: $K = \left(K_p, K_h\right)$.

Baxılan hər iкi model (həm MRW və həm də neoкlassiкlərin əvvəlкi "standart" modelində) ilə bağlı olan amil reqressiya asılılığında inкişafın artımını göstərir. Amma bu model uzun müddət üçün nəzərdə tutulmur. Ona görə də, belə modellərə «Exogenous qrow model» (modeldən кənar artım) deyilir.

Daxildən inкişafı nəzərə alan modellər «Exogenous qrow model»:

Əvvəldə göstərilən modellərdə bəzi şərtləri əvəz etsəк, onda onlar uzunmüddətli inкişafı göstərən modellər кimi təzahür edə bilər (ancaq bütün bu hallarda texnologiyanın səviyyəsi A sabit qalır). Neoкlassiкlərin standart modelində (1)-(6) düsturları saxlanılır, (7) düsturu əvəzinə isə aşağıdaкı qəbul edilir:

$$\forall \tilde{N}A > 0 : \lim_{k\to\infty} \left(K, \tilde{N}A\right)/K > 0 \tag{8}$$

Reqressiya inкişaf modelləri:

Yeni tədqiqatlar ölкələrin inкişafı, onların iqtisadi artımları arasındaкı fərqləri təyin edən faкtorların müəyyən edilməsi və təhlilini getdiкcə daha çox əhatə etməyə başlamışlar. Reqressiyaya əsaslanan tədqiqatlar inкişaf modellərilə əlaqədar arzu olunan nəticələr və səmərəli həll yollarını göstərirlər. Ancaq 1999-cu ildə Durlaf və Kuah şərh etmişdilər кi, belə təcrübi tədqiqatların bəzi nəticələri aydın izah olunmur. Həyata кeçirilən çoxlu sayda tədqiqatlardan istifadə olunan reqressionların iqtisadi modellərin içərisində hər hansı məna кəsb edib-etməməsi müəyyən olunmur. Məsələn, Azariad və Drazenin (1990) təкlif etdiкləri modeldə кənardan maкsimum dərəcədə təsir göstərən amil tapmaq mümкündür кi, bu amil məhsul buraxılışında əhəmiyyətli rol oynayır və onu gizli və ya aşкar edilməyən

amil kimi qiymətləndirmək olar. Modellərdə aşkar edilməyən digər amillər kimi, ölkənin gücü, imkanı, kəşfləri, onun mövcud şəraitindən əlverişli istifadə edilməsi hallarını və s. (bunlar əsasən ölkənin siyasi, ictimai şəraiti ilə bağlıdır) qeyd etmək olar. Belə amillər modellərdə nəzərə alınmayan faktorlar kimi qiymətləndirilsə də, onlar inkişaf modellərində böyük əhəmiyyət kəsb edirlər. Bütün bunlara əsasən belə nəticəyə gəlmək olar ki, bu göstəricilər qeyri-xətti xarakter və əlaqədə olmaqla, xətti reqressiya asılılıqlarında arzu olunan nəticələrin alınmamasına səbəb olur. Nəticədə isə qeyri-xətti modellərin yaranması və tətbiqinə zərurət meydana çıxır. Belə qeyri-xətti modellər həmin amilləri nəzərdə tutur.

**2. Mövcud tədqiqatların araşdırılması**

İqtisadi inkişafla əlaqədar son dövrlərdə dünyada və İranda bir çox tədqiqatlar həyata keçirilmişdir. Hofer və Perez (2001) reqressiya formasında aşağıdakı göstəricilərdən istifadə etmişlər. Bu göstəricilərin təsiretmə nəticələri (müsbət və mənfi səviyyədə) mötərizədə verilmişdir [8]:

- İqtisadiyyatın açıqlıq dərəcəsi və səviyyəsi (1950-1990-cı illərdə, nəticə: mənfi və çox güclü);
- İbtidai təhsilə qəbul edilənlərin artımı (1960-cı ildə nəticə: mənfi);
- Latın Amerikası və Fransanın müstəmləkəsi (nəticə: mənfi);
- Budda - buddizm (nəticə: müsbət), konfitsi (nəticə: müsbət, çox güclü);
- İlkin gəlir (nəticə: mənfi);
- Təchizata qoyulan sərmayənin ÜDM-ə nisbəti, faizlə (nəticə: müsbət, çox güclü);
- Ömür müddəti (1960-cı ildə, nəticə: müsbət);
- İnqilab və komendant məhdudiyyətləri (nəticə: mənfi, çox güclü).

Barro 1997-ci ildə reqressiya formasında aşağıda qeyd edilən amillərdən istifadə etmiş və alınan nəticələr belə olmuşdur [6]:

- Demokratiya (nəticə: müsbət);
- Orta və ali təhsili olan 25 yaşdan yuxarı kişilər (nəticə: müsbət, çox güclü);
- İlkin gəlir (nəticə: mənfi, çox güclü);
- İnvestisiyaların ÜDM-ə nisbəti (nəticə: müsbət, çox güclü);
- Milli və xarici valyutanın mübadiləsi, real qiymətlərdə (nəticə: müsbət, güclü);
- Dövlətin cari xərclərinin ÜDM-ə nisbəti (nəticə: mənfi, çox güclü);
- İnflyasiya (nəticə: mənfi, çox güclü).

Emadzadə 1999-cu ildə həyata keçirdiyi tədqiqatda aşağıdakı göstəricilərdən istifadə edərək, qeyd edilən nəticələri almışdır [2]:

- İqtisadiyyatla məşğul olanlar (nəticə: müsbət, çox güclü);
- Ali təhsilin cari xərcləri (nəticə: müsbət, çox güclü);
- Ali təhsili olan işçilərin orta sayı (nəticə: müsbət, çox güclü).

Komicani və Ələvi 1998-ci ildə öz tədqiqatlarında aşağıdakı amillərdən istifadə edərək, qeyd edilən nəticələri əldə etmişlər [3]:

- İnvestisiyaların ÜDM-ə nisbəti (nəticə: müsbət, çox güclü);
- İşçilərin sayının dəyişməsinin ÜDM-ə nisbəti (nəticə: müsbət, çox güclü);
- Neftin qiymətinin dəyişməsinin ÜDM-ə nisbəti (nəticə: müsbət, çox güclü);
- Dövlət xərclərinin dəyişməsinin ÜDM-ə nisbəti (nəticə: müsbət, çox güclü);

- Qısamüddətli inflyasiya (nəticə: müsbət, çox güclü);
- Uzunmüddətli inflyasiya (nəticə: mənfi, güclü).

Göstəricilərin təhlili:

Əvvəlki iqtisadi inkişaf modellərini nəzərdən keçirdikdən sonra və həmçinin iqtisadiyyatın əhatə dairəsinə görə qeyd etmək lazımdır ki, reqression inkişaf modelinə daxil olan izahedici və ya asılı amillər (dəyişənlər) aşağıdakılardan ibarətdir:

- İnvestisiya və fiziki kapital;
- İşlə məşğul olanlar;
- İnsan kapitalı;
- Ticarət;
- Pul və maliyyə amilləri;
- Qiymətlərin səviyyəsinin dəyişməsi (inflyasiya);
- Dövlət;
- Siyasi şərait.

Hər bir bölmədən iqtisadi inkişafa əsaslı surətdə təsir göstərən və onun əhatə dairəsinə məqsədli şəkildə uyğun gələn müəyyən bir amil seçilir və bu amilin qiymətlərinin modelə daxil edilməsi şərti yoxlanılır.

*İnvestisiya və fiziki kapital bölməsi üzrə:*

Məcmuu investisiya, investisiya artımı, ehtiyatlara (təchizata) olan investisiyalar, mövcud olan sərmayənin qiyməti və digər izahedici amillər bu bölmədə nəzərə alınır və son nəticədə ümumi investisiyaların artımı göstəricisindən istifadə etmək nəzərdə tutulur.

*İşlə məşğul olanlar bölməsi üzrə:*

Əhalinin sayı, əhalinin artımı, iqtisadi fəal əhalinin sayı və artımı, məşğul əhalinin sayı və artımı və digər izahedici amillər bu bölmədə nəzərə alınır. Son nəticədə isə işsizliyin səviyyəsinin yüksək olması səbəbindən burada məşğul əhalinin say göstəricisindən istifadə etmək məqsədli hesab edilir.

*İnsan kapitalı bölməsi üzrə:*

İnsan kapitalı dedikdə insanların bilik, bacarıq, intellektual qabiliyyəti, yüksək texnologiyaları mənimsəmə səviyyəsi və s., həmçinin onların malik olduqları ixtisas üzrə işləmə imkanları başa düşülür. İnsan kapitalını dəqiq ölçmək mümkün olmadığına görə, çox vaxt belə kapitalın əvəzinə digər göstəricilərdən istifadə olunur. Bu məqsədlə tədqiqatçılar müxtəlif amillərdən istifadə etmişlər. Məsələn, məşğul əhalinin ali təhsil illərinin sayı, müxtəlif səviyyələrdə (orta məktəb, bakalavr və s.) təhsil illərinin miqdarı, texnoloji və mühəndis ixtisasları üzrə tələbələrin sayının ümumi təhsil alan tələbələrin sayına nisbəti, ali təhsil xərclərinin artımı, elm, texnologiya və mühəndis ixtisasları olan işçilərin sayının ümumi işçilərin sayına nisbəti və s. Bu göstəricilər içərisindən son nəticədə insan kapitalı kimi ali təhsilli işçilərin sayının götürülməsi daha məqsədli hesab edilməlidir.

*Ticarət bölməsi üzrə:*

Azad ticarətə üstünlük verənlər ticarətin inkişafının əsas istiqaməti kimi, bu sahədə məhdudiyyətlərin və maneələrin aradan qaldırılmasını vacib amil hesab edirlər. Bu bölmədə bir çox amillər: ixrac və idxal olunan malların miqdarı, xarici ticarət dövriyyəsinin ÜDM-ə nisbəti, ixrac məhsul-

larının dəyişməsinin ÜDM-ə nisbəti, idxal olunan məhsulların dəyəri və s. nəzərə alınır. İran iqtisadiyyatının inkişafının neftlə sıx bağlı olması səbəbindən ixrac olunan məhsul ölkənin ticarətində mühüm əhəmiyyət kəsb edir və yuxarıda qeyd etdiyimiz amillərdən birini burada istifadə etmək olar. Digər tərəfdən, ölkənin iqtisadiyyatının inkişafı idxal olunan məhsullarla da sıx bağlıdır. Nəticədə bu tədqiqatda ümumi ticarət dövriyyəsinin həcmi və ya onun ÜDM-ə nisbəti göstəricisindən (bu göstərici ölkənin açıq iqtisadiyyatının səviyyəsini aydınlaşdırır) istifadə olunur.

*Pul və maliyyə amilləri bölməsi üzrə:*

İqtisadi inkişafın müasir nəzəriyyələrində maliyyə strukturlarının iqtisadi fəaliyyətinin mühüm rol oynaması öz əksini tapmışdır. Belə strukturların əsas vəzifəsi vacib məsələlərə nəzarət etmək və həmçinin müəssisələrin fəaliyyətinin qorunması, yeniləşdirilməsi və davamlı olmasının təmin edilməsidir. Bu bölməyə şamil edilən amillərə: pul kütləsinin artımı, pul kütləsinin həcminin ÜDM-ə nisbəti, qiymətli kağızlar bazarında mübadilənin miqdarı, dəyəri, özəl sektorun uzun müddətə həyata keçirdiyi sərmayənin miqdarı, dövriyyədə olan pulların ümumi pulun həcminə nisbəti, bankların nağd vəsaitləri və s. aiddir. İqtisadiyyatın əhatə dairəsinə nəzər salarkən, maliyyə mənbələrinə bank sisteminin güclü təsiri olduğuna görə, bu tədqiqatda pul kütləsinin artırılması amilindən istifadə etmək lazımdır.

*Qiymətlərin səviyyəsinin dəyişməsi və ya inflyasiya bölməsi üzrə:*

İnsan və fiziki kapitalın tətbiqi nəticələrinin uzun dövrlərdən sonra təzahür etməsi qiymətlərin artımına səbəb olur. Bundan başqa, investisiya qoyuluşlarının real nəticələri və pul yığımının miqdarının azalması uzun dövrlərdə iqtisadi inkişafa mənfi təsir göstərir. Bu bölmədə inflyasiya, inflyasiyanın səviyyəsinin artması və s. amil kimi nəzərə alınır. İnflyasiyanın səviyyəsi kimi istehlak malları və xidmətlərin qiymət indekslərindən istifadə edilməlidir.

*Dövlət bölməsi üzrə:*

Dövlətin vacib vəzifəsi iqtisadi nəzarət və rəhbərlikdir. Dövlətin fəaliyyətinin əsas məqsədini əhalinin həyat səviyyəsinin getdikcə daha çox yaxşılaşdırılmasına səy göstərmək təşkil edir və bu məqsədlərinin həyata keçirilməsinin əsasını da büdcə təşkil edir. Buna görə də dövlətin xərcləri iqtisadi inkişaf modellərinə daxil edilir. Dövlətin iqtisadi inkişafa hansı səviyyədə təsir etdiyini bilmək üçün müxtəlif amillərdən istifadə olunur: dövlətin cari xərcləri, dövlətin investisiya xərcləri, dövlətin ümumi xərcləri, artım və ya dövlətin ümumi xərclərinin ÜDM-ə nisbəti və s. Dövlətin investisiya xərcləri iqtisadi inkişafda böyük rol oynadığı üçün tədqiqatda belə göstəricidən, həmçinin dövlətin cari və tam xərclərindən ayrı-ayrılıqda istifadə olunmalıdır.

*Siyasi şərait bölməsi üzrə:*

Bu bölmədə siyasi şəraitin dəyişməsi, demokratiya, mədəni azadlıq və qanunun hakimliyi, aliliyi və s. amillərdən istifadə olunur. Bu tədqiqatda müharibə və inqilab illəri məcazi mənada vahid (1) və yerdə qalan digər illər (0) qəbul ediləcəkdir.

Məqalədə iqtisadi inkişafının modellərinin təhlili istiqamətində aşağıda qeyd olunan amillərdən statistik mənbələrin məlumatlarının imkan ver-

diyi səviyyədə istifadə olunması təкlif və tövsiyə olunur:

1. Ümumi investisiya artımı; 2. İşlə məşğul olan əhalinin sayı; 3. Ali təhsili olan işçilərin sayı; 4. Ümumi ticarət dövriyyəsi, ümumi ticarət dövriyyəsinin ÜDM-ə nisbəti; 5. Pul кütləsinin artımı; 6. İnflyasiya səviyyəsinin artımı; 7. Dövlətin cari və ümumi xərcləri; 8. Siyasi şəraiti müəyyən edən məcazi amil.

Fiкrimizcə, qeyd edilən amillərin ölкənin iqtisadi inкişaf modellərinin tədqiqində istifadəsi məqsədəuyğun hesab oluna bilər.

## ƏDƏBİYYAT


1. Əкbəri Məhəmmədrza, Kərimi Hüseyn. İxrac olunan malların iqtisadi inкişafa və investisiyaya təsiri // «Plan və büdcə» jurnalı, №52-53, 2000.
2. Emadzadə Mustafa. İranın iqtisadi inкişafına insan кapitalının təsiri // «Plan və büdcə» jurnalı, №49-50, 2000.
3. Komicani Əкbər və Ələvi Məsud. İranın iqtisadiyyatında inflyasiya və inкişaf mənbələri. «Pul siyasəti» 9-cu кonfransın məqalələr toplusu: «Banк və pul tədqiqat müəssisələri», 1999.
4. Barro, Robert. J (1991). Economic Growth in a Cross-section of Countries. Quarterly Journal of Economics, 106 (2), p.407-443.
5. Barro, Robert. J (1996). "Democracy and Growth". Journal of Economic Growth, 1(1), p.1-27.
6. Barro, Robert. J (1997). Determinats of Economic Growth. MIT Press, Cambridge.
7. Doppel Hofer, G.Miller, R, & Sala-i-Martin, X. (2000): "Determinants of Long-Term Growth: A Ba Yesian Averaging of classical Estimates (BACE) Approach", NBER working Paper Series, № 7750.
8. Durlauf, Steven N. and Quah, Danny T. (1999): "The new Empirics of Economic Growth". In Hand book of macroeconomics Vol.1, John B. Taylor and M.Woodford, eds., North Holland, Amsterdam.


## АНАЛИЗ ФАКТОРОВ, ВЛИЯЮЩИХ НА ЭКОНОМИЧЕСКОЕ РАЗВИТИЕ


МИР НАСЕР МИР БАГИРИ ХИР


### РЕЗЮМЕ


Статья посвящена анализу факторов, влияющих на экономическое развитие. В статье выявляются преимущества исследования экономического развития на основании линейных и нелинейных моделей. Обобщая научные труды выдающихся экономистов, в том числе экономистов Иранской Республики, определены факторы, влияющие на экономическое развитие.


## ANALYSIS FACTORS INFLUENCING ON THE ECONOMICAL DEVELOPMENT


MIR NASIR MIR BAGIRI HIR


### SUMMARY


The article is dedicated to analysis factors on the economical development. The advantage of research work of economical development on the base linear and unlinear models is revealed in the article. Generalizing research works of outstanding economists as well as the economists of Iran Islam Republic have been determined the factors influencing on the economical development.